**“Sahibkar məktəbli” II respublika müsabiqəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Sahibkar məktəbli” II respublika müsabiqəsinin (bundan sonra müsabiqə) keçirilmə qaydalarını müəyyən edir.

1.2. Müsabiqə “Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2022-ci il üçün Fəaliyyət Planının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası təhsil nazirinin 18 mart 2022-ci il tarixli F-135 nömrəli əmrinin icrası ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi, “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin təşkilatçılığı ilə keçirilir.

## 2. Müsabiqənin məqsədi və vəzifələri

2.1. Uşaq və gənclərin biznes və sahibkarlıq bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi.

2.2. İstedadlı məktəblilərin yaradıcı təşəbbüslərini həyata keçirmək üçün şəraitin yaradılması.

2.3. Gənc ixtiraçıların peşəkarlıq qabiliyyətlərinin təkmilləşdirilməsi.

2.4. Uşaq və gənclərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi və perspektivli gənclərin aşkar edilməsi.

## 3. Müsabiqənin keçirilməsi şərtləri və qaydaları

3.1. Respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri müsabiqədə iki yaş qrupunda (10-13 yaş və 14-16 yaş) fərdi, həmçinin 3 və ya 5 nəfərdən ibarət komandalar şəklində iştirak edə bilər.

3.1. İştirakçılar müsabiqəyə hər iki yaş qrupunda bir nominasiya üzrə bir biznes layihəsi təqdim edə bilər.

3.2. Seçilmiş nominasiya üzrə təqdim olunacaq işlər yalnız iştirakçıların özü tərəfindən hazırlanmalıdır.

3.3. Digər müsabiqələrdə iştirak üçün təqdim edilmiş, iştirakçının şəxsi sosial şəbəkə hesablarında (Facebook, İnstagram, Youtube və s.) paylaşılan işlər müsabiqədən kənar hesab olunur və nəticələri ləğv olunur.

3.4. İştirakçı tərəfindən müsabiqəyə göndərilən biznes layihələrinin müəllif hüquqları təşkilatçıya (“Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsə) həvalə edilir.
3.5. Müəllif təşkilatçıya biznes layihələrinin istifadəsi, yayımlanması, paylaşılmasına (kütləvi informasiya vasitələrində və digər tədbirlərdə) razılıq verir.
3.6. Əsasnamənin şərtlərinə uyğun olmayan işlər müsabiqəyə qəbul edilmir.
3.7. Müsabiqəyə təqdim olunan hər bir video material 2 dəqiqədən çox olmamalıdır (özü və layihəsi haqqında məlumat, həmçinin layihənin elektron formada təqdimatı).
3.8. Təqdimatlar Microsoft Power Point, PDF formatında USB (yaddaş kart) daşıyıcıda və ya yükləmə linkində təqdim edilir.
3.9. Müsabiqəyə təqdim olunan videolar keyfiyyətli və təmiz redaktə olunmalı, telefon və ya kamera vasitəsilə (HD FULL 480-1080, mini /720 horizontal işığa qarşı olmasın) coystik və ya ştativ ilə çəkilməlidir.

## 4. Müsabiqənin nominasiyaları

4.1. İnternet sahibkarlığı (satış).
4.2. Sosial, ictimai sahədə sahibkarlıq.
4.3. Art marketinq üzrə sahibkarlıq.
4.4. Ekoloji təmiz məhsul üzrə sahibkarlıq.
4.5. Resursların təkrar emalı - yeni məhsulların dizaynı və istehsalı.

## 5. Müsabiqənin mərhələləri

5.1. **I mərhələ** - 1 – 30 oktyabr 2022-ci il tarixlərində keçirilir. Bu mərhələdə müsabiqəyə qatılacaq iştirakçılar özləri haqqında məlumatları ərizə formalarına (fərdi - Əlavə 1, kollektiv - Əlavə 2, Əlavə 3) uyğun doldurub “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin rugim@mk.edu.az elektron ünvanına göndərir.
***Qeyd:*** Mərkəzin facebook səhifəsi və əlaqə nömrələri https://www.facebook.com/rugim.az/, +994 12 492 57 67, +994 55 630 73 03 – whatsapp).
5.2. **II mərhələ -** 1 noyabr – 1 dekabr 2022-ci il tarixlərində startap və sahibkarlıq fəaliyyəti, mentorluq anlayışı üzrə təlimlər hibrid formada keçirilir.
5.3. **III mərhələ** - 1 – 15 dekabr 2022-ci il tarixlərində iştirakçılar tərəfindən videoçarx və layihə təqdimatları hazırlanır.
5.4. **IV mərhələ** - 15 – 25 dekabr 2022-ci il tarixlərində keçirilir. Bu mərhələdə videoçarxlar, təqdimatlar üçün təqdim edilən ərizələrin toplanması, təhlili, layihələrin qısa siyahısı formalaşdırılır.

5.5. **Final mərhələsi-** 27 dekabr 2022-ci il tarixində keçirilir. Bu mərhələdə seçilmiş startap layihələrinin təqdimatı aparılır və qaliblər müəyyən edilir.

## 6. Müsabiqənin qiymətləndirmə meyarları və şərtləri

**6.1. Qiymətləndirmə meyarları:**

- Həyata keçirmə imkanı (texnoloji, müvəqqəti, maliyyə);
- Layihənin faydalılığı, etibarlılığı, aktuallığı;
- Marketinq strategiyası və hədəf auditoriyasının anlaşılması;
- Yenilik və unikallıq, bazar üçün cəlbedicilik, investisiya;
- Müstəqillik (layihə kurator tərəfindən deyil, müsabiqə iştirakçıları tərəfindən hazırlanmış və videoda təqdim edilmişdir).
- Qiymətləndirmə meyarına əsasən - 0 bal şərtlərə cavab vermir, 1 bal cuzi, 2 bal natamam, 3 bal tam cavab verir.

**6.2. Qiymətləndirmə şərtləri:**

- Təşkilat komitəsi (Əlavə 4) tərəfindən yaradılmış münsiflər heyəti yaş qrupları və nominasiyalar üzrə qiymətləndirmə aparır və qalibləri müəyyən edir.
- Münsiflər heyətinin qərarı ilə razı olmayan iştirakçılar Təşkilat komitəsinə müraciət edə bilər.
- Təşkilat komitəsi münsiflər heyətinin qərarından razı olmayan iştirakçıların şikayətlərinə yenidən baxır.
- İştirakçılar nominasiya və yaş qrupları üzrə 0-3 ballıq sistemlə qiymətləndirilir.
- Qiymətləndirmənin yekununda iki iştirakçı eyni bal topladığı halda münsiflər heyəti qeyd olunan göstəricələrə daha çox uyğun gələn iştirakçıya əlavə 1 bal vermək hüququna malikdir.

## 7. Qaliblərin mükafatlandırılması

7.1. “Sahibkar məktəbli” II respublika müsabiqəsində 2 xüsusi qalibi, hər yaş qrupu və nominasiyalar üzrə I, II, III yerlərin qalibləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılır. Bütün iştirakçılara sertifikatlar təqdim olunur.

*Əlavə 1*

**ƏRİZƏ FORMASI**

1. Müsabiqədə fərdi şəkildə iştirak etmək üçün ərizə forması:

| | |
|---|---|
| **Şəhər və ya rayon:** | |
| **İştirakçının adı, soyadı, atasının adı:** | |
| **Təvəllüd:** | |
| **Təhsil aldığı məktəb, sinif:** | |
| **Valideynin adı, soyadı:** | |
| **Yaşayış ünvanı:** | |
| **Telefon:** | |
| **E-mail:** | |
| **Təmsil etdiyi müəssisənin adı:**<br>(İnkişaf mərkəzi, məktəb və s.) | |
| **Nominasiyanın adı:** | |

*Əlavə 2*

**ƏRİZƏ FORMASI**

1. Müsabiqədə kollektiv şəkildə iştirak etmək üçün ərizə forması:

| | |
|---|---|
| **Şəhər və ya rayon:** | |
| **İştirakçının adı, soyadı, atasının adı (lider):** | |
| **Təvəllüd:** | |
| **Təhsil aldığı məktəb, sinif:** | |
| **Valideynin adı, soyadı:** | |
| **Yaşayış ünvanı:** | |
| **Telefon:** | |
| **E-mail:** | |
| **Təmsil etdiyi müəssisənin adı:** (İnkişaf mərkəzi, məktəb və s.) | |
| **Nominasiyanın adı:** | |
| 2-ci İştirakçının adı, soyadı, atasının adı, təvəllüdü | |
| 3-cü İştirakçının adı, soyadı, atasının adı, təvəllüdü | |
| 4-cü İştirakçının adı, soyadı, atasının adı, təvəllüdü | |
| 5-ci İştirakçının adı, soyadı, atasının adı, təvəllüdü | |

*Əlavə 3*

**“Sahibkar məktəbli” II respublika müsabiqəsində iştirakla bağlı müəlliflik müqaviləsi**

Öz fəaliyyətini mövcud qanunvericilik və ______________________________________
*(nizamnamə, əsasnamə, şəhadətnamə, qeydiyyat nömrəsi və tarixi)*

əsasında həyata keçirən “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsi

*(idarə, müəssisə, təşkilatın adı)*

bundan sonra “İstifadəçi” adlanacaq, onun şəxsində ______________________________

*(müqaviləni imzalayan şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)*

bir tərəfdən və müəllif(lər) və ya müəlliflik hüquqlarının digər sahibləri, bundan sonra “Müəllif” adlanacaq, onun şəxsində ______________________________

____________________________________________________________________
*(müqaviləni imzalayan şəxsin soyadı, adı və ünvanı)*

digər tərəfdən aşağıdakılar haqqında müqavilə bağladılar:

**1. Müqavilənin predmeti**

1.1. Müəllif bu Müqavilə ilə nəzərdə tutulan şərtlər daxilində öz biznes layihəsindən (bundan sonra - əsər) istifadəyə müstəsna hüquqları (əsərin hər hansı üsulla və formada istifadəsi, yayımlanması, paylaşılması, yenidən işlənilməsi, dəyişikliklər edilməsi, bir dildən başqa dilə tərcüməsi və s.) _____ müddətdə İstifadəçiyə verir.

1.2. İstifadəçi bu Müqavilə ilə nəzərdə tutulan şərtlər daxilində və müvafiq üsullarla əsər(lər)dən istifadə etməyi öhdəsinə götürür.

1.3. İstifadəçinin razılığı olmadan Müəllif tərəfindən bu Müqavilənin 1.1-ci bəndində göstərilən əsər başqa müsabiqələrə göndərilə, sosial şəbəkələrdə paylaşıla, çap edilə, onun məzmununda, həcmində və formatında dəyişiklik aparıla bilməz.

**2. Digər şərtlər**

2.1. İstifadəçi müəllifin soyadı, adı, atasının adı və adları dəqiq müəyyən edilmiş əsər(lər)indən istifadə etməyi öhdəsinə götürür.

2.2. Müəllif müvafiq nominasiya və yaş qrupu üzrə təqdim etdiyi əsərin özü tərəfindən hazırlandığını və plagiat olmadığını təsdiq edir.

2.3. Bu Müqavilə əsər(lər)dən burada nəzərdə tutulmayan istifadə üsullarına aid edilmir.

2.4. Bu Müqavilə ilə nəzərdə tutulmayan, lakin onun predmetinə aid olan şərtlər mövcud qanunvericiliklə nizamlanır.

2.5. Bu Müqaviləyə edilən əlavə və dəyişikliklər o halda qüvvədə sayılır ki, onlar yazılı şəkildə tərtib edilir və tərəflərin imza və möhürləri ilə təsdiqlənir.

2.6. Müəllif müqaviləsində əsərdən istifadənin üsulları haqqında şərt olmadıqda (müəllif müqaviləsi üzrə verilən konkret hüquqlar), müqavilə onu bağlayan tərəflərin istəklərinin əldə edilməsi üçün vacib hesab etdikləri istifadə üsuluna görə bağlanmış hesab oluna bilər.

2.7. Müəllif müqaviləsində ərazi haqqında şərt olmadıqda, müqavilə üzrə nəzərdə tutulan hərəkətlər Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşdırılır.

2.8. Müqavilənin qüvvədə olma müddəti dayandırıldıqda onun ödənişlər üzrə müddəaları İstifadəçi müqavilədən doğan bütün ödənişləri yerinə yetirənədək qüvvədə qalır.

2.9. Müəllif öz fəaliyyətini istifadəçinin təyin etdiyi qaydalar çərçivəsində qurmalı və bu müqavilə ilə üzərinə düşən öhdəliklərdən kənara çıxmamalı, əsasnamənin müddəaları çərçivəsində verilən digər tapşırıqları yerinə yetirməli, göstərişlərə riayət etməlidir.

2.10. Tərəflərdən birinin təşkilati-hüquqi formasında, fəaliyyətinin xarakterində dəyişikliklər olarsa və ya tərəflərdən biri fəaliyyətini dayandırarsa, o, vaxtında bu barədə digərini yazılı surətdə xəbərdar etməlidir.

2.11. Müəllif və İstifadəçi arasında bu Müqavilədə nəzərdə tutulan məsələlərlə bağlı mübahisələr mövcud qanunvericiliyə uyğun şəkildə həll edilir.

## 3. Sənədləşmə

Bu Müqavilə 2 nüsxədə imzalanır və tərəflərin hər birində bir nüsxə olmaqla saxlanılır.

**Tərəflərin ünvanı və bank rekvizitləri:**

Müəllif ____________________________________________

Ünvanı ____________________________________________

____________________________________________

Telefon ____________________________________________

İstifadəçi ____________________________________________

Ünvanı ____________________________________________

____________________________________________

Telefon ____________________________________________

H/Hesabı ____________________________________________

*Əlavə 4*

**“Sahibkar məktəbli” II respublika müsabiqəsinin**

**təşkilat komitəsi**

| | |
|---|---|
| 1. Elnur Əliyev | - Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri, sədr |
| 2. Firuzə Sultan-zadə | - “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin direktoru, üzv |
| 3. Cavidan Cəfərzadə | - “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin Elm, innovasiya və texnologiya şöbəsinin bölmə müdiri, üzv |
| 4. İlahə Məmmədova | - “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin Elm, innovasiya və texnologiya şöbəsinin metodisti, üzv |
| 5. Rüfət Əliyev | - “Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi” publik hüquqi şəxsin Elm, innovasiya və texnologiya şöbəsinin mütəxəssi, üzv |